# XX əsrin ən böyük faciəsi

## Xocalım-sinə dağım

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar şəhər 3 nömrəli tam orta məktəbində tədbir keçirilmişdir. Tədbir şagirdlərin həmin faciəyə aid hazırladıqları kompozisiya ilə başlanmışdır. Şagirdlər Xocalı dəhşətlərini nümayiş etdirən səhnələr göstərmiş, şeirlər söyləmişlər.

Qeyd edək ki, hələ bir ay əvvəl məktəbdə Xocalı faciəsinə həsr olunmuş inşa müsabiqəsi elan olunmuşdur.

Tədbirdə inşa yazı müsabiqəsinə yekun vurulmuşdur. Məktəb rəhbərliyi Xocalı faciəsini daha əhatəli əks etdirən inşa yazıların müəlliflərinə təşəkkür etmişdir.

**Ramin ƏLİYEV,**
**məktəbin müəllimi.**

## Unudulmayan faciə

Quşlar kənd tam orta məktəbində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbiri məktəbin direktoru Natiq Ramazanov açmışdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Direktor müavini Firəngiz İsmayılova, tarix müəllimi Rabil Abdullayev və başqaları Xocalı soyqırımının baş vermə səbəblərindən, mənfur erməni cəlladlarının etnik təmizləmə siyasətindən bəhs ediblər.

Xocalı soyqırımına həsr olunmuş inşa yazılara, rəsmlərə baxış keçirilib.

Sonda məktəblərin ifasında Xocalı soyqırımına həsr olunmuş kompozisiya nümayiş olunub.

Tədbirdə Quşlar və Bəyli kənd inzibati ərazi nümayəndələri Dünyamin Cümşüdov, Nəriman Məmmədov və Quşlar bələdiyyəsinin sədri Əlif Məmmədkərimov iştirak ediblər.

**Çələbi DÖNMƏZ,**
**“Qızıl qələm” media mükafatı laureatı.**

## Tələbələrlə görüş keçirilib

***İlham Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbinin hazırda ali və orta ixtisas məktəblərində təhsil alan məzunları ilə görüş keçirilib. Görüşdə müəllimlər və yuxarı sinif şagirdləri iştirak ediblər.***

Məktəbin direktoru Yaqub Tahirov keçmiş şagirdləri salamlamış, onlara təhsildə uğurlar arzulamışdır.

Ötən dərs ilində on birinci siniflərə rəhbərlik etmiş müəllimlər- Fazil Atakişiyev və Ramiz Ağayev çıxış edərək məzunları bir daha təbrik etmiş, onların nailiyyətləri ilə qürur duyduqlarını bildirmişlər. Hazırda $11^a$ sinfinin rəhbəri olan Nigar Babayeva əmin olduğunu bildirmişdir ki, onun rəhbərlik etdiyi təmayül sinfinin şagirdləri də qəbul imtahanlarında məktəbin qabaqcıl adını qoruyacaqlar.

İbtidai hərbi hazırlıq müəllimi Oqtay Bilalov çıxışında qeyd etmişdir ki, məktəbin yetirmələri arasında ali zabit rütbəsinə yüksəlmiş, ordu da xidmət edən peşəkar kadrlarımız çoxdur. Biz onlarla fəxr edirik və ümidvarıq ki, bundan sonra da məktəbi bitirən məzunlarımız onların yolunu davam etdirəcəklər. Təsadüfi deyil ki, ötən il 4 nəfər məzunumuz ali hərbi məktəblərə daxil olub.

Məktəb direktorunun müavini Dəyanət Bilalzadə, uşaq birliyinin rəhbəri Sara Seyidova, müəllim Şəfəq Abdullayeva, valideyinlərdən Aygün Əhmədova, Vəfa Məsimova və başqaları çıxış edərək tələbələrə və bu il on birinci sinifi bitirəcək şagirdlərə ürək sözlərini çatdırmışlar.

Tədbir musiqi ilə müşayət olunmuş, xoş əhval-ruhiyyə ilə başa çatmışdır.

**“Qəbələ”**

## Maraqlı tədbir

Aydınqışlaq kənd tam orta məktəbi öz uğurları ilə seçilən məktəblər sırasındadır. Ötən dərs ilində məktəb binasının müasir tələblər səviyyəsində təmir edilməsi, həyətinin abadılaşdırılması burada tədrisin keyfiyyətinə də müsbət təsir göstərmişdir.

2017-2018-ci dərs ilində məktəbi bitirən məzunlardan 12 nəfəri ali məktəblərə qəbul olunmuşdur.

Bu yaxınlarda məktəbdə ənənəvi olaraq ali və orta ixtisas məktəblərində oxuyan keçmiş məzunlarla görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə məktəb direktorunun müavini Natəvan Əfəndiyeva açmışdır. Məktəbin direktoru Sevil Nəbiyeva keçmiş məzunları–bu günkü tələbələri salamlamış, onlara təhsildə uğurlar arzulamışdır. Direktor məktəbdə təhsilin təşkili, əldə olunan nəticələr barədə də görüş iştirakçılarına məlumat vermişdir.

Müəllimlərdən Qütsiyyə Abdullayeva, Sənani Məmmədov, Təmraz Mikayılov və başqaları tələbələrə uğurlar arzulamış, təhsillərini ləyaqətlə başa vuraraq həyatda fəal mövqe tutmalarını diləmişlər.

Tələbələr diqqətə görə məktəb kollektivinə təşəkkür etmişlər.

Tədbirdə şagirdlərin ifasında vətənə, müəllimə, tələbəlik illərinə həsr olunmuş şeirlər və mahnılar səslənmişdir.

**Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

## Yarışların qalibi dəyişmədi

Azərbaycan tolerantlığının bariz nümunəsi olan Nic qəsəbəsində müntəzəm olaraq maraqlı mədəni-kütləvi və idman tədbirləri təşkil olunur.

Bu yaxınlarda Nic bələdiyyəsinin təşkilatçılığı ilə qəsəbədə həvəskarlar arasında dama yarışları keçirilmişdir.

Yarışda 20 nəfərdən artıq həvəskar iştirak etmişdir.

Zaur Baxışovun hakimliyi ilə keçən yarışda əvvəki ildə keçirilən yarışın qalibi olmuş Adil Qəribov yenə də öz birinciliyini qoruyub saxlaya bilmişdir.

Artur Quqasov ikinci, Telman Dinçari üçüncü yeri tutmuşlar.

Qaliblər Nic Bələdiyyəsi tərəfindən qiymətli hədiyyələr və Fəxri fərmanlarla mükafatlandırılmışlar.

**Əhməd MƏMMƏDLİ,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri.**

## Ümumtəhsil məktəblərində buraxılış imtahanlarının keçirilmə qrafiki müəyyən olunub

*2019-cu ildə respublikanın ümumtəhsil məktəblərində ümumi və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanları aşağıdakı qrafikə uyğun keçiriləcək:*

| S/s | İmtahan keçiriləcək bölgələr | Buraxılış imtahanlarının keçirilmə tarixləri | | |
|---|---|---|---|---|
| | | Ümumi orta təhsil səviyyəsi üzrə (1-ci mərhələ) | Ümumi orta təhsil səviyyəsi üzrə (2-ci mərhələ) | Tam (11 illik) orta təhsil səviyyəsi üzrə |
| 1 | Bakı (Nərimanov, Səbail, Yasamal, Nəsimi, Nizami, Binəqədi, Sabunçu, Xətai, Suraxanı, Xəzər, Qaradağ, Pirallahı), Naxçıvan MR, Şirvan | 03 mart | 02 iyun | 07 aprel |
| 2 | Sumqayıt, Abşeron, Gəncə, Göygöl, Samux, Naftalan,Goranboy, Daşkəsən, Şəki, Oğuz, Qəbələ, Lənkəran, Astara, Biləsuvar, Ağsu, Zərdab, Şamaxı, Kürdəmir, Ağdam, Yevlax, Bərdə, Tərtər, İmişli, Saatlı, Sabirabad, Xaçmaz, Şabran | 10 mart | 09 iyun | 14 aprel |
| 3 | Mingəçevir, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz, Balakən, Zaqatala, Qax, Yardımlı, Cəlilabad, Masallı, Lerik, Göyçay, Ağdaş, Ucar, İsmayıllı, Qobustan, Ağcabədi, Xocavənd, Füzuli, Beyləqan, Salyan, Neftçala, Hacıqabul, Qusar, Quba, Siyəzən, Xızı | 17 mart | 16 iyun | 21 aprel |

***Qeyd 1.*** Məcburi köçkün rayonlarının məktəblərində təhsil alanlar təhsil müəssisələrinin yerləşdiyi müvafiq şəhər və rayonlarda imtahan verəcəklər.

***Qeyd 2.*** C.Naxçıvanski adına Hərbi Lisey (Bakı) və Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan) təhsil alanlar təhsil müəssisələrinin yerləşdiyi müvafiq şəhər və rayonlarla eyni tarixdə imtahan verəcəklər.

***Qeyd 3.*** Tədrisi ingilis və fransız dilində olan məktəblərdə təhsil alanlar müvafiq siniflər üzrə 3-cü imtahan günündə imtahan verəcəklər.

## Uşaqlar üçün reabilitasiya mərkəzi inşa olunacaq

Prezident İlham Əliyevin uğurlu sosial siyasətinə uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturu daim təkmilləşdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzində və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsində müasir tələblərə uyğun reabilitasiya şəraiti mövcuddur. İl ərzində həmin mərkəzlərdə 3500-dən artıq sağlamlıq imkanları məhdud uşağa reabilitasiya xidmətləri göstərilir.

Eyni zamanda dövlət başçısının tapşırığına əsasən, nazirlik tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturunun respublikamızın bölgələri üzrə genişləndirilməsi də nəzərdə tutulur.

Bu məqsədlə cari ildə Qəbələ rayonunda sağlamlıq imkanları məhdud uşaqlar üçün bərpa mərkəzinin tikintisinə başlanması nəzərə tutulub. Bu kimi müəssisənin yaradılması sağlamlıq imkanları məhdud uşaqların bərpa müalicəsi imkanlarının artırılmasında, onlar arasında sağlamlıq imkanları məhdudluğun qarşısının alınmasında əhəmiyyətli rol oynayacaq.

**“Qəbələ”**